**"Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanının 1.18-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 21 yanvar 2010-cu il
12

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 21 yanvar tarixli 12 nömrəli qərarı ilə
təsdiq edilmişdir

**Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi**

**QAYDASI**

## 1. Ümumi müddəalar[1]

1.1. Bu Qayda “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinə əsasən hazırlanmışdır və təhsilin hər hansı pilləsini və səviyyəsini müxtəlif səbəblərdən başa vurmayan şəxslərə arayışın verilməsi qaydasını tənzimləyir. Arayış təhsilin müvafiq pillələrini və səviyyələrini müxtəlif səbəblərdən başa vurmayan şəxslərin (yetkinlik yaşına çatmadıqda, valideynlərinin və ya digər qanuni nümayəndələrinin) müraciətləri əsasında verilir.

1.2. Ümumi orta və tam orta təhsil səviyyələri üzrə müvafiq sinfi bitirdikdən sonra təhsilini davam etdirməyən və ya hər hansı dərs ilində dərs məşğələlərində iştirak etmədiyi üçün fənn (fənlər) üzrə biliyi qiymətləndirilməyən və ya *buraxılış imtahanında iştirak etməyən*, ~~*yaxud* tam orta təhsil səviyyəsində fənn (fənlər) üzrə illik qiyməti “2” olduğu üçün yekun attestasiyaya buraxılmayan~~ şəxslər ümumi təhsil pilləsini başa vurmamış hesab edilirlər.[2]

1.3. Müvafiq kursu bitirdikdən sonra təhsilini davam etdirməyən və ya hər hansı dərs ilində dərs məşğələlərində iştirak etmədiyi üçün ümumtəhsil fənni (fənləri) üzrə biliyi qiymətləndirilməyən, habelə tədris planında nəzərdə tutulmuş fənlər (peşə liseylərində ümumtəhsil fənləri istisna olmaqla) üzrə attestasiyadan və yaxud yekun attestasiyadan keçməyən, habelə istehsalat təcrübəsi və təlimlərdə iştirak etməyən şəxslər *peşə* təhsilini başa vurmamış hesab edilirlər.[3]

1.4. Tədris planında nəzərdə tutulmuş fənn (fənlər) üzrə attestasiyadan və yaxud yekun attestasiyadan keçməyən şəxslər orta ixtisas təhsil pilləsini başa vurmamış hesab edilirlər.

1.5. Tədris planında nəzərdə tutulmuş fənn (fənlər) üzrə tələb olunan kreditləri qazanmayan və yaxud yekun attestasiyadan keçməyən şəxslər ali təhsilin müvafiq səviyyələrini başa vurmamış hesab edilirlər.

## 2. Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələri üzrə müxtəlif səbəblərdən təhsilini başa vurmayan şəxslərə arayışın verilməsi qaydası

2.1. Ali təhsil pilləsinin səviyyələri üzrə təhsilini başa vurmayan şəxslərə onların müraciətindən sonra 5 gün ərzində bu Qaydanın 1 nömrəli əlavəsində verilmiş formaya uyğun arayış verilir. Arayışda hər bir semestr üzrə tələbənin dinlədiyi fənlər (kreditin qazanılıb-qazanılmadığından asılı olmayaraq) barədə məlumatlar verilir.

2.2. Arayışlar qoruyucu nişanı olan xüsusi kağızda çap olunur.

2.3. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən çap etdirilir və ali təhsil müəssisələrinə *həmçinin Azərbaycan Milli Elmlər Akademiyasına (bundan sonra - AMEA)* onların müraciəti əsasında verilir.[4]

2.4. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyində, *ali təhsil müəssisələrində və AMEA-da* ciddi hesabat sənədi kimi saxlanılır.[5]

2.5. Korlanmış arayışlar blankları ciddi hesabat sənədi kimi *ali təhsil müəssisələri və AMEA* tərəfindən müvafiq qaydada aktla silinir.[6]

2.6. Arayışların verilməsi üçün *ali təhsil müəssisələrində və AMEA* qeydiyyat kitabı açılır. Qeydiyyat kitabına aşağıdakı məlumatlar daxil edilir:

qeydiyyat nömrəsi;
arayış verilən şəxsin soyadı, adı, atasının adı;
arayışın seriyası və nömrəsi;
arayışın verilmə tarixi;
arayışı alan şəxsin imzası.

2.7. Arayışlar əlyazma və ya elektron formada qara şriftlə doldurulur.

## 3. Orta ixtisas təhsili pilləsini müxtəlif səbəblərdən başa vurmayan şəxslərə arayışın verilməsi qaydası

3.1. Arayış orta ixtisas təhsilini müxtəlif səbəblərdən başa vurmayan şəxslərin (yetkinlik yaşına çatmadıqda, valideynlərinin və ya digər qanuni nümayəndələrinin) müraciətləri əsasında verilir.

Orta ixtisas təhsilini başa vurmayan şəxslərə onların müraciətindən sonra 5 gün ərzində bu Qaydanın 2 nömrəli əlavəsində verilmiş formaya uyğun arayış verilir.

3.2. Arayışda təhsilalanın dinlədiyi fənlər (kreditin qazanılıb-qazanılmadığından asılı olmayaraq) barədə məlumatlar hər bir semestr üzrə verilir.

3.3. Arayışlar qoruyucu nişanı olan xüsusi kağızda çap olunur.

3.4. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən çap etdirilir və orta ixtisas təhsili müəssisələrinə onların müraciəti əsasında verilir.

3.5. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyində və orta ixtisas təhsili müəssisələrində ciddi hesabat sənədi kimi saxlanılır.

3.6. Korlanmış arayış blankları ciddi hesabat sənədi kimi orta-ixtisas təhsili müəssisəsi tərəfindən müvafiq qaydada aktla silinir.

3.7. Arayışların verilməsi üçün orta ixtisas təhsili müəssisəsində qeydiyyat kitabı açılır. Qeydiyyat kitabına aşağıdakı məlumatlar daxil edilir:

qeydiyyat nömrəsi;
arayış verilən şəxsin soyadı, adı, atasının adı;
arayışın seriyası və nömrəsi;
arayışın verilmə tarixi;
arayışı alan şəxsin imzası.

3.8. Arayışlar əlyazma və ya elektron formada qara şriftlə doldurulur.

### 4. *Peşə* təhsili müəssisələrində müxtəlif səbəblərdən təhsilini başa vurmayan şəxslərə arayışın verilməsi qaydası[7]

4.1. Arayış *peşə* təhsili pilləsini müxtəlif səbəblərdən başa vurmayan şəxslərin (yetkinlik yaşına çatmadıqda valideynlərinin və ya digər qanuni nümayəndələrinin) müraciətləri əsasında verilir.[8]

*Peşə* təhsili müəssisələrində təhsilini başa vurmayan şəxslərə onların müraciətindən sonra 5 gün ərzində bu qaydanın 3 nömrəli əlavəsində verilmiş formaya uyğun arayış verilir.[9]

4.2. Arayışda şəxsin dinlədiyi fənlər barədə məlumatlar verilir.

4.3. Arayışlar qoruyucu nişanı olan xüsusi kağızda çap olunur.

4.4. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən çap etdirilir və *peşə* təhsili müəssisələrinə onların müraciəti əsasında verilir.

4.5. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyində və *peşə* təhsili müəssisələrində ciddi hesabat sənədi kimi saxlanılır.

4.6. Korlanmış arayış blankları ciddi hesabat sənədi kimi *peşə* təhsili müəssisəsi tərəfindən müvafiq qaydada aktla silinir.

4.7. Arayışların verilməsi üçün *peşə* təhsili müəssisəsində qeydiyyat kitabı açılır. Qeydiyyat kitabına aşağıdakı məlumatlar daxil edilir:

qeydiyyat nömrəsi;
arayış verilən şəxsin soyadı, adı, atasının adı;
arayışın seriyası və nömrəsi;
arayışın şəxsə verilmə tarixi;
arayış alan şəxsin imzası.

4.8. Arayışlar əlyazma və ya elektron formada qara şriftlə doldurulur.

### 5. Ümumi təhsilin səviyyələrini müxtəlif səbəblərdən başa vurmayan şəxslərə arayışın verilməsi qaydası

5.1. Arayış ümumi təhsilin ibtidai, ümumi orta və tam orta səviyyələrini müxtəlif səbəblərdən başa vurmayan şəxslərin valideynlərinin və ya digər qanuni nümayəndələrinin müraciəti əsasında məktəb pedaqoji şurasının qərarı ilə 10 gün müddətində bu Qaydanın 4, 5 və 6 nömrəli əlavələrində verilmiş formalara uyğun verilir.

5.2. Arayışda şagirdin dinlədiyi fənlər və həmin fənlər üzrə aldığı qiymətlər yazılır.

5.3. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən qoruyucu nişanı olan xüsusi kağızda çap etdirilir və ümumi təhsil müəssisələrinə onların müraciəti əsasında verilir.

5.4. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyində və ümumi təhsil müəssisələrində ciddi hesabat sənədi kimi saxlanılır.

5.5. Korlanmış arayış blankları ciddi hesabat sənədi kimi ümumi təhsil müəssisəsi tərəfindən müvafiq qaydada aktla silinir.

5.6. Arayışların verilməsi üçün ümumi təhsil müəssisəsində qeydiyyat kitabı açılır. Qeydiyyat kitabına aşağıdakı məlumatlar daxil edilir:

qeydiyyat nömrəsi;
arayış verilən şagirdin soyadı, adı, atasının adı;
arayışın seriyası və nömrəsi;
arayışın verilmə tarixi;
arayışı alan şəxsin imzası.

5.7. Arayışlar əlyazma və ya elektron formada qara şriftlə doldurulur.

### 6. Ali təhsil pilləsinin doktorantura səviyyəsini müxtəlif səbəblərdən başa vurmayan şəxslərə arayışın verilməsi

6.1. Ali təhsil pilləsinin doktorantura səviyyəsi üzrə təhsilini başa vurmayan şəxslərə onların müraciətlərindən sonra 5 gün ərzində bu Qaydaların 7 nömrəli əlavəsinə uyğun formada arayış verilir. Arayışda doktoranturada təhsil müddətində verilmiş doktorluq imtahanlarının adları və qiymətləri göstərilir. İmtahanlar müxtəlif təşkilatlarda verildikdə, bu barədə cədvəlin sonunda

müvafiq qeydlər aparılır.

6.2. Arayışlar qoruyucu nişanı olan xüsusi kağızda çap olunur.

6.3. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi tərəfindən çap etdirilir və ali təhsil müəssisələrinə *elmi müəssisə və təşkilatlara* onların müraciəti əsasında verilir.[10]

6.4. Arayış blankları Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyində, ali təhsil müəssisələrində, *elmi müəssisə və təşkilatlarda* ciddi hesabat sənədi kimi saxlanılır.[11]

6.5. Korlanmış arayış blankları ciddi hesabat sənədi kimi ali təhsil müəssisəsi və ya *elmi müəssisə və təşkilat* tərəfindən müvafiq qaydada aktla silinir.[12]

6.6. Arayışların verilməsi üçün ali təhsil müəssisəsində, *elmi müəssisə və təşkilatda* qeydiyyat kitabı açılır. Qeydiyyat kitabına aşağıdakı məlumatlar daxil edilir:[13]

qeydiyyat nömrəsi;
arayış verilən şəxsin soyadı, adı, atasının adı;
arayışın seriyası və nömrəsi;
arayışın verilmə tarixi;
arayışı alan şəxsin imzası.

6.7. Arayışlar əlyazma və ya elektron formada qara şriftlə doldurulur.

"Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini
və səviyyəsini başa vurmayan şəxslərə arayışın
verilməsi Qaydası"na
**1 nömrəli əlavə**

**ARAYIŞ**

**AA 000000**

Verilir ______________________________________________________________________ ondan ötrü ki,

*(soyadı, adı, atasının adı)*

o, həqiqətən "________" ________________ il tarixindən "________"__________________ il tarixinədək

__________________________________________________________________________

*(ali təhsil müəssisəsinin adı, və ya AMEA, təhsilin səviyyəsi, ixtisas və təhsilalma forması)*[14]

__________________________________________________________________________

* il tarixindən "________" ______________________ il "________" ______________ tarixinədək*

__________________________________________________________________________

*(ali təhsil müəssisəsinin adı, və ya AMEA, təhsilin səviyyəsi, ixtisas və təhsilalma forması)*

__________________________________________________________________ təhsil almışdır.

______________________________________________________________ təhsil müddətində

*(soyadı, adı, atasının adı)*

semestrlər üzrə cədvəldə göstərilən fənləri dinləmişdir.

__________________________________________________________________________

*(ali təhsil müəssisəsindən və ya AMEA-dan xaric olunma səbəbləri göstərilməlidir)*[15]

__________________________________________________________________________

*(əmrin -si və tarixi)*

tələbələr sırasından xaric edilmişdir.

M.Y.

**Rektor *və ya AMEA-nın prezidenti*** ________________[16]

Qeydiyyat -si ____________

"_____" ________________ il

| Sıra -si | Tədris planı üzrə fənnin adı | Kreditin miqdarı | | Aldığı ** qiymət (hərf və balla) |
|---|---|---|---|---|
| | | müəyyənləşdirilmiş | qazanılmış | |
| | | | | |
| | | | | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

* Bu hissə tələbə təhsilini digər ali təhsil müəssisəsində *və ya AMEA-da* başladığı halda doldurulur[17]
**Fənn üzrə tələbələrin biliyi aşağıdakı kimi qiymətləndirilir:

A — "əla" (91-100)
B — "çox yaxşı" (81-90)
C — "yaxşı" (71-80)
D — "kafi" (61-70)
E — "qənaətbəxş" (51-60)
F — "qeyri-kafi" (51 baldan aşağı)

**Fakültə dekanı** ____________________

"Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini
və səviyyəsini başa vurmayan şəxslərə arayışın
verilməsi Qaydası"na
**2 nömrəli əlavə**

**ARAYIŞ**

**AA 000000**

Verilir ______________________________________________________________ ondan ötrü ki,

*(soyadı, adı, atasının adı)*

o, həqiqətən "________" __________________ il tarixindən "_______"_________________ il tarixinədək

________________________________________________________________________________

*(orta ixtisas təhsili müəssisəsinin adı, təhsil forması və ixtisas)*

________________________________________________________________________________

________________________________________________________________________________

* il tarixindən "________" _________________ il "__________" _______________________ tarixinədək*

_______________________________________________________________________________

*(orta ixtisas təhsili müəssisəsinin adı, təhsil forması və ixtisas)*

_______________________________________________________________________________

təhsil almışdır.

_________________________________________________________________ təhsil müddətində

*(soyadı, adı, atasının adı)*

semestrlər üzrə cədvəldə göstərilən fənləri dinləmişdir.

_______________________________________________________________________________

*(orta ixtisas təhsili müəssisəsindən xaric olunmanın səbəbləri göstərilməlidir)*

_______________________________________________________________________________

*(əmrin -si və tarixi)*

tələbələr sırasından xaric edilmişdir.

M.Y.

**Direktor** _______________

Qeydiyyat -si ___________

"_____" _______________ il

| **Sıra -si** | **Tədris planı üzrə fənlərin adı** | **Kreditlərin miqdarı** | | **Aldığı **qiymət (hərf və balla)** |
|---|---|---|---|---|
| | | **müəyyənləşdirilmiş** | **qazanılmış** | |
| | I semestr | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | II semestr | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | III semestr | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

| Sıra -si | Tədris planı üzrə fənlərin adı | Kreditlərin miqdarı | | Aldığı **qiymət (hərf və balla) |
|---|---|---|---|---|
| | | müəyyənləşdirilmiş | qazanılmış | |
| | IV semestr | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | V semestr | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | VI semestr | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

| Sıra -si | Tədris planı üzrə fənlərin adı | Kreditlərin miqdarı | | Aldığı **qiymət (hərf və balla) |
|---|---|---|---|---|
| | | müəyyənləşdirilmiş | qazanılmış | |
| | VII semestr | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | VIII semestr | | | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

* Bu hissə tələbə təhsilini digər orta ixtisas təhsili müəssisəsində başladığı halda doldurulur
**Fənn üzrə tələbələrin biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | |
|---|---|
| A — "əla" | (91-100) |
| B — "çox yaxşı" | (81-90) |
| C — "yaxşı" | (71-80) |
| D — "kafi" | (61-70) |
| E — "qənaətbəxş" | (51-60) |
| F — "qeyri-kafi" | (51 baldan aşağı) |

**Tədris işləri üzrə**
**direktor müavini** ___________________

"Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini
və səviyyəsini başa vurmayan şəxslərə arayışın
verilməsi Qaydası"na
**3 nömrəli əlavə**

**ARAYIŞ**

**AA 000000**

Verilir ______________________________________________________________ ondan ötrü ki,
*(soyadı, adı, atasının adı)*

O, həqiqətən "_______" ______________ il tarixindən "______"_______________ il tarixinədək
___________________________________________________________________________________
*(peşə təhsili müəssisəsinin adı, təhsil forması və ixtisas)*
___________________________________________________________________________________
___________________________________________________________________________________
___________________________________________________________________________________
təhsil almışdır.
___________________________________________________________________________ təhsil müddətində
*(soyadı, adı, atasının adı)*
tədris planı üzrə cədvəldə göstərilən fənləri dinləmişdir.
___________________________________________________________________________________
*(peşə təhsili üzrə peşə diplomunun verilməməsi səbəbləri göstərilməlidir)*
___________________________________________________________________________________
*(əmrin -si və tarixi)*
___________________________________________________________________________________
_________________________________________________________ təhsilini başa çatdıra bilməmişdir.

M.Y.

**Direktor** _________________

Qeydiyyat -si ____________

"_____" ________________ il

| Sıra-si | Tədris planı üzrə fənnin adı | Aldığı qiymət | |
|---|---|---|---|
| | | rəqəmlə | hərflə |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**Tədris işləri üzrə direktor müavini**

___________________

"Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na
**4 nömrəli əlavə**

## Ümumi orta təhsil haqqında

## ARAYIŞ

Verilir ___________________________ ildə anadan olmuş ____________________________

_____________________________________________________________________________________

*(soyadı, adı, atasının adı)*

ondan ötrü ki, o, həqiqətən 20 ____________/20___________ dərs ilində

_____________________________________________________________________________________

_____________________________________________________________________________________

_____________________________________________________________________________________

IX sinfində oxumuş və aşağıdakı qiymətləri almışdır:

Ana dili ( ) _____________
Ədəbiyyat _____________
Azərbaycan dili (dövlət dili) _____________
Xarici dil ( ) _____________
İkinci xarici dil ( ) _____________
Riyaziyyat _____________
İnformatika _____________
Azərbaycan tarixi _____________
Ümumi tarix _____________
Fizika _____________
Kimya _____________
Biologiya _____________
Coğrafiya _____________
Həyat bilgisi _____________
Texnologiya _____________
Fiziki tərbiyə _____________
Musiqi _____________
Təsviri incəsənət _____________
_____________
_____________

Direktor

Direktor müavini

Müəllimlər:

Arayış «____» ________________ 20___ il tarixində verilmişdir
M.Y. seriya ________ __________________
Qeydiyyat -si ___________________

"Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini
və səviyyəsini başa vurmayan şəxslərə arayışın
verilməsi Qaydası"na
**5 nömrəli əlavə**

**Tam orta təhsil haqqında**

**ARAYIŞ**

Verilir ________________________________ ildə anadan olmuş _________________________
_______________________________________________________________________________________
*(soyadı, adı, atasının adı)*
ondan ötrü ki, o, həqiqətən 20 ____________/20___________ dərs ilində
_______________________________________________________________________________________
_______________________________________________________________________________________
_______________________________________________________________________________________
IX sinfində oxumuş və aşağıdakı qiymətləri almışdır:

| | |
|---|---|
| Ana dili ( ) | _____________ |
| Ədəbiyyat | _____________ |
| Azərbaycan dili (dövlət dili) | _____________ |
| Xarici dil ( ) | _____________ |
| İkinci xarici dil ( ) | _____________ |
| Riyaziyyat | _____________ |
| İnformatika | _____________ |
| Azərbaycan tarixi | _____________ |
| Ümumi tarix | _____________ |
| Fizika | _____________ |
| Kimya | _____________ |
| Biologiya | _____________ |
| Coğrafiya | _____________ |
| Fiziki tərbiyə | _____________ |
| Çağırışaqədərki hazırlıq | _____________ |
| _____________ | _____________ |
| _____________ | _____________ |

Direktor
Direktor müavini
Müəllimlər:

Arayış "____" ________________ 20___ il tarixində verilmişdir
M.Y. seriya ________ __________________
Qeydiyyat -si ___________________

"Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və
səviyyəsini başa vurmayan şəxslərə arayışın
verilməsi Qaydası"na
**6 nömrəli əlavə**

**İbtidai təhsil haqqında**

**ARAYIŞ**

Verilir ________________________ ildə anadan olmuş ________________________________
_______________________________________________________________________________________
*(soyadı, adı, atasının adı)*
ondan ötrü ki, o, həqiqətən 19________ ildə anadan olmuş, 20_______ /20_______ dərs ilində
_______________________________________________________________________________________
_______________________________________________________________________________________

______________________________________________________________________________

IV sinifdə oxumuş və aşağıdakı qiymətləri almışdır:

Ana dili () _______________
Azərbaycan dili (dövlət dili) _______________
Xarici dil ( ) _______________
Riyaziyyat _______________
İnformatika _______________
Həyat bilgisi _______________
Texnologiya _______________
Fiziki tərbiyə _______________
Musiqi _______________
Təsviri incəsənət _______________

_______________ _______________
_______________ _______________

Direktor
Direktor müavini
Müəllimlər:

"____" __________________ 20___ il tarixdə verilmişdir
M.Y. seriya _____________ _____________________
Qeydiyyat -si ___________________________________

"Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na
**7 nömrəli əlavə**

**ARAYIŞ**

**AA 000000**

Verilir ______________________ ildə anadan olmuş _________________________________________
______________________________________________________________________________
*(soyadı, adı, atasının adı)*

ondan ötrü ki, o, həqiqətən "________" "________________________ il tarixindən
"______" ________________________ tarixinədək _______________________________________
______________________________________________________________________________
*(ali təhsil müəssisəsinin və ya elmi müəssisə və təşkilatın adı, təhsilin səviyyəsi, ixtisas və təhsilalma* [18] *forması)*

______________________________________________________________________________
______________________________________________________________________________
_________________________________________________________________ təhsil almışdır və təhsil müddətində cədvəldə göstərilən fənlər üzrə doktorluq imtahanlarını vermişdir.
O, __________________________________________________________________________
*(ali təhsil müəssisəsindən və ya elmi müəssisə və təşkilatdan xaric olunma səbəbləri göstərilməlidir)*
______________________________________________________________________________
*(əmrin -si və tarixi)*

doktoranturadan xaric edilmişdir.

M.Y.
Rektor (direktor) _____________________
Qeydiyyat -si ________________________
"____"_____________________ 20___ il

| Sıra -si | Fənlər üzrə doktorluq imtahanlarının adı | Aldığı qiymət | |
|---|---|---|---|
| | | rəqəmlə | hərflə |

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**Qeyd:** Hansı sənədlər əsasında hazırlanmışdır.

**Elmi işləri üzrə prorektor**
**(direktor müavini)** ____________________

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 23 may 2013-cü il tarixli **82** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 568**)
2. 13 iyun 2016-cı il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 19 iyun 2016-cı il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1199** )
3. 9 dekabr 2016-cı il tarixli **497** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2216)**
4. 28 aprel 2017-ci il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 664)**
5. 19 dekabr 2018-ci il tarixli **542** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2018-ci il, 289**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2738)**
6. 3 iyun 2019-cu il tarixli **252** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 iyun 2019-cu il, 122**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1141)**
7. 21 dekabr 2022-ci il tarixli **448** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 23 dekabr 2022-ci il)**
8. 21 dekabr 2022-ci il tarixli **448** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 23 dekabr 2022-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1552** )

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 23 may 2013-cü il tarixli **82** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 568**) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 1-ci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**1. Ümumi müddəa**~~

~~Bu Qayda "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun hazırlanmışdır və ali təhsil pilləsini müxtəlif səbəblərdən başa vurmayan şəxslərə arayışın verilməsi qaydasını tənzimləyir. Həmin arayış ali təhsilin müvafiq səviyyələrini müxtəlif səbəblərdən başa vurmayan şəxslərin (yetkinlik yaşına çatmadıqda, valideynlərinin və ya digər qanuni nümayəndələrinin) müraciətləri əsasında verilir.~~

[2] 9 dekabr 2016-cı il tarixli **497** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 dekabr 2016-cı il, 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2216**) ilə 1.2-ci bəndə "**qiymətləndirilməyən və ya**" sözlərindən sonra "**buraxılış imtahanında iştirak etməyən, yaxud**" sözləri əlavə edilmişdir.

3 iyun 2019-cu il tarixli **252** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 5 iyun 2019-cu il, 122**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 1141**) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 1.2-ci bəndindən "**, yaxud tam orta təhsil səviyyəsində fənn (fənlər) üzrə illik qiyməti " 2" olduğu üçün yekun attestasiyaya buraxılmayan**" sözləri çıxarılmışdır.

[3] 19 dekabr 2018-ci il tarixli **542** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2018-ci il, 289**, **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2738**) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 1.3-cü bəndində, 4.4-4.7-ci bəndlərində və 3 nömrəli əlavədə hər iki halda "**ilk peşə-ixtisas**" sözləri "**peşə**" sözü ilə əvəz edilmişdir.

[4] 13 iyun 2016-cı il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 19 iyun 2016-cı il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1199** ) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 2.3-cü bəndə "**ali təhsil müəssisələrinə**" sözlərindən sonra "**, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasına (bundan sonra - AMEA)**" sözləri əlavə edilmişdir.

21 dekabr 2022-ci il tarixli **448** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 23 dekabr 2022-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 12, maddə 1552** ) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 2.3-cü, 2.4-cü, 3.4-cü, 3.5-ci, 4.4-cü, 4.5-ci, 5.3-cü, 5.4-cü, 6.3-cü və 6.4-cü bəndlərində "**Təhsil**" sözü "**Elm və Təhsil** " sözləri ilə əvəz edilmişdir.

[5] 13 iyun 2016-cı il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 19 iyun 2016-cı il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1199** ) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 2.4-cü bənddə "**və ali təhsil müəssisələrində**" sözləri "**, ali təhsil müəssisələrində və AMEA-da**" sözləri ilə əvəz edilmişdir.

[6] 13 iyun 2016-cı il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 19 iyun 2016-cı il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1199** ) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 2.5-ci və 2.6-cı bəndlərdə ismin müvafiq hallarında "**ali təhsil müəssisəsi**" sözləri ismin müvafiq hallarında "**ali təhsil müəssisələri və AMEA** " sözləri ilə əvəz edilmişdir.

[7] 19 dekabr 2018-ci il tarixli **542** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2018-ci il, 289** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2738**) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 4-cü hissənin adında "**İlk peşə-ixtisas**" sözləri "**Peşə**" sözü ilə əvəz edilmişdir.

[8] 19 dekabr 2018-ci il tarixli **542** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2018-ci il, 289** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2738**) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 4.1-ci bəndinin birinci abzasında "**ilk peşə-ixtisas**" sözləri "**peşə**" sözü ilə əvəz edilmişdir.

[9] 19 dekabr 2018-ci il tarixli **542** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2018-ci il, 289** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2738**) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 4.1-ci bəndinin ikinci abzasında "**İlk peşə-ixtisas**" sözləri "**Peşə**" sözü ilə əvəz edilmişdir.

[10] 28 aprel 2017-ci il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 664**) ilə 6.3-cü bənddə "**(elmi təşkilatlara)**" sözləri "**, elmi müəssisə və təşkilatlara**" sözləri ilə əvəz edilmişdir.

[11] 28 aprel 2017-ci il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 664**) ilə 6.4-cü bənddə "**və elmi təşkilatlarda**" sözləri "**, elmi müəssisə və təşkilatlarda**" sözləri ilə əvəz edilmişdir.

[12] 28 aprel 2017-ci il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 664**) ilə 6.5-ci bənddə "**elmi təşkilat**" sözləri "**elmi müəssisə və təşkilat**" sözləri ilə əvəz edilmişdir.

[13] 28 aprel 2017-ci il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 664**) ilə 6.6-cı bənddə "**və elmi təşkilatda**" sözləri "**, elmi müəssisə və təşkilatda**" sözləri ilə əvəz edilmişdir.

[14] 13 iyun 2016-cı il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 19 iyun 2016-cı il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1199** ) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 1 nömrəli əlavə - "Arayış"ının hər iki halda "**ali təhsil müəssisəsinin adı,**" sözlərindən sonra "**və ya AMEA**," sözləri əlavə edilmişdir.

[15] 13 iyun 2016-cı il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 19 iyun 2016-cı il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1199** ) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 1 nömrəli əlavə - "Arayış"ının "**ali təhsil müəssisəsindən**" sözlərindən sonra "**və ya AMEA-dan**" sözləri əlavə edilmişdir.

[16] 13 iyun 2016-cı il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 19 iyun 2016-cı il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1199** ) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 1 nömrəli əlavə - "Arayış"ının "**Rektor**" sözündən sonra "**və ya AMEA-nın prezidenti** " sözləri əlavə edilmişdir.

[17] 13 iyun 2016-cı il tarixli **222** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 19 iyun 2016-cı il, 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 6, maddə 1199** ) ilə "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"nın 1 nömrəli əlavə - "Arayış"ının "**ali təhsil müəssisəsində**" sözlərindən sonra "**və ya AMEA-da**" sözləri əlavə edilmişdir.

[18] 28 aprel 2017-ci il tarixli **181** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 30 aprel 2017-ci il, 91, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 664**) ilə Qaydaya 7 nömrəli əlavə - "Arayış"da "**elmi təşkilatın**" sözləri "**elmi müəssisə və təşkilatın** " sözləri ilə və "**elmi təşkilatdan**" sözləri "**elmi müəssisə və təşkilatdan**" sözləri ilə əvəz edilmişdir.